## Bakıda XIX Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgisi

Xəzəryanı regionun neft-qaz sahəsində ən böyük tədbir olan «Caspian Oil and Gas 2012» sərgisində dünyanın 35 ölkəsindən 304 şirkət öz ekspozisiyalarını nümayiş etdiriblər. Sərgidə Böyük Britaniya, Almaniya, Çin, Rusiya və Türkiyə öz milli qruplarını təqdim ediblər. Builki sərgidə MDB, Avropa və Şərqi Asiya ölkələrindən olan şirkətlərin sayı nəzərəçarpacaq dərəcədə artıb. Vyetnamdan olan şirkətlər isə bu sərgidə ilk dəfə çıxış ediblər. Sərgi pavilyonunun 40%-dən çox hissəsini bütün dünyada məşhur olan şirkətlər və «Caspian Oil & Gas» sərgisinin daimi iştirakçıları, 59%-ni xarici iştirakçılar, yerdə qalan hissəsini isə yerli istehsalçılar və xarici şirkətlərin yerli nümayəndəlikləri tutublar. Bundan əlavə, ekspozisiyanın 10%-ni Azərbaycan bazarında əvvəllər heç vaxt fəaliyyət göstərməyən şirkətlər təşkil ediblər.

Sərgidə iştirak etmiş Vergilər Nazirliyi öz pavilyonu ilə tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük marağına səbəb olmuşdur. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən sərgi iştirakçılarını maraqlandıran suallara ətraflı cavablar verilmiş, çoxlu sayda məlumatlandırıcı, maarifləndiriçi materiallar və nəşrlər paylanmışdır.